Təsisçi: Azərbaycan Tibb Universiteti

# Təbib

Qəzet 1933 -cü ildən çıxır. http://www.amu.edu.az № 11 (1651) 16 iyun 2017 - ci il Qiymәti 50 qәpik

# Prezident İlham Əliyev müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini və diplomatik nümayəndəliklərinin rəhbərlərini qəbul edib



**İyunun 13-də Prezident İlham Əliyev müqəddəs Ramazan ayı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini və diplomatik nümayəndəliklərinin rəhbərlərini qəbul edib.**

Dövlətimizin başçısı görüşdə çıxış edərək Azərbaycanın İslam həmrəyliyinin gücləndirilməsi işinə öz töhfəsini verdiyini deyib: "Bildiyiniz kimi, bu il Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edilmişdir. İl ərzində ölkəmizdə və digər ölkələrdə bir çox tədbirlər keçirilmişdir. Bu ili "İslam Həmrəyliyi İli" elan etməyimiz bizim siyasətimizi əks etdirir, niyyətimizi göstərir. Mən tam əminəm ki, biz - müsəlman ölkələri öz aramızda olan problemləri dinc yolla həll etməliyik və həmrəyliyi gücləndirməliyik.

Bu il, eyni zamanda, Azərbaycanda IV İslam Həmrəyliyi Oyunları keçirilmişdir. Təmsil etdiyiniz ölkələrin idmançıları Azərbaycanda bu Oyunlarda iştirak edirdilər. Bir çox qonaqlarımız olmuşdur. Əminəm ki, onlar öz ölkələrinə ən xoş təəssüratlarla qayıdıblar. İslam Həmrəyliyi Oyunları sadəcə idman yarışı deyil. Biz istəyirdik ki, bu Oyunlar İslam aləmini birləşdirsin. İdmançılar, qonaqlar Bakıda olarkən bir ailə kimi yaşayırdılar və əminəm ki, bu günlər ərzində İslam həmrəyliyi ən yüksək zirvəyə qalxmışdır. Biz də çalışmalıyıq ki, bu həmrəyliyi bu yüksək zirvədə saxlayaq. Əminəm ki, belə də olacaq.

Bir daha sizi ürəkdən salamlayıram və sizə uğurlar arzulayıram".

## BU SAYIMIZDA





Dövlət müstəqilliyimizin xilası-Qurtuluş 2

ATU-da 2016-2017-ci tədris ilinin yekun Dövlət imtahan sessiyası başlandı 3



"Onko-Hematolojide Yeni Yaklaşımlar" mövzusunda elmi – tibbi konfrans keçirilib 5



Gülhanə Hərbi Tibb Akademiyasının professoru ATU-nun qonağı olub 4

Dünya şöhrətli radioloq ATU-da mühazirə söylədi 5

Dağıstanlı tələbələrin ATU-dakı yay təcrübəsi başa çatıb 3

Universitetin Tələbə Həmkarlar İttifaqı Komitəsinə yeni sədr seçildi 7





ATU-da İctimai Nəzarət və Məsləhət Şurası yaradıldı 4

Xəstəxanadaxili infeksiyalarla mübarizədə Avropa standartları 6

Tədris Terapevtik Klinikada müasir standartlara cavab verən LOR kabineti fəaliyyətə başladı 6

# Dövlət müstəqilliyimizin xilası-Qurtuluş

**◆ Böyük Atatürk demişdir: «Ən böyük şəxslər özündən çox mənsub olduğu cəmiyyəti düşünən, onun varlığını və xoşbəxtliyinin qorunması yolunda həyatını verən insanlardır».**

Ulu öndər Heydər Əliyev də məhz belə şəxsiyyətlərdəndir. Bu fikri onun öz dediyi sözlərdən də aydın görmək olar: «Mən həyatım, bütün əmək fəaliyyətim dövründə ancaq xalq üçün, insanlar üçün düşünmüşəm, xalq üçün yaşamışam, insanlar üçün yaşamışam. Bu gün də bu fikirlə yaşayıram».



Ölkədə gedən prosesləri və baş verə biləcək təhlükələri qabaqcadan görən ağsaqqallar, sadə əmək adamları Naxçıvana, Heydər Əliyevin yanına gedərək ondan hakimiyyətə qayıtmağı təkidlə xahiş edirdilər. 1992-ci ilin oktyabrında Heydər Əliyevə Bakıdan 91 nəfər ziyalının imzası ilə müraciət göndərildi.

... 1993-cü ilin əvvəllərində Bakıda hakimiyyət tam iflic vəziyyətinə düşmüşdü. AXC-Müsavat rejiminin səriştəsizliyi və acizliyi üzündən hərc-mərcliyin dövlət həyatının bütün sahələrinə sirayət etməsindən, ölkədə hökm sürən başıpozuqluqdan, hakimiyyət uğrunda didişmədən, əslində milli ordunun olmamasından istifadə edən təcavüzkar Ermənistan Respublikası bir-birinin ardınca torpaqlarımızı işğal edir, yüz minlərlə soydaşımızı yerindən-yurdundan didərgin salırdı. Sürətlə gedən dağılma prosesinin məntiqi nəticəsi kimi, 1993-cü ilin ortalarında Azərbaycan real vətəndaş müharibəsi təhlükəsi, separatçılıq meylləri ilə üz-üzə dayanmışdı. Ölkə parçalanmaq, bir dövlət kimi məhv olmaq fəlakətinin lap yaxınlığında idi.

O vaxt elə görünürdü ki, Azərbaycan hər tərəfdən onun üstünə ayaq açan təhlükələrin qarşısında duruş gətirə bilməyəcək, çətinliklə əldə etdiyi müstəqilliyi əsrin əvvəllərindəki kimi yenə də itirəcək, xalqımız kölə vəziyyətinə düşəcəkdir.

Lakin xoşbəxtlikdən belə olmadı, çünki Azərbaycan xalqının Heydər Əliyev kimi dahi övladı vardı. Dar ayaqda xalq öz övladını köməyə çağırdı, Heydər Əliyev isə canından artıq sevdiyi xalqının səsini eşidib onun imdadına çatdı və «xalq mənə ümid bəsləyir. Mən də bu ümidi doğrultmaq üçün həyatımın qalan hissəsini xalqa bağışlamışam və ona qurban verməyə hazıram» söyləyərək, özünü alovlara atdı.

Əsil lider olan nəhəng şəxsiyyətlərin tarixi qayıdışı nadir hadisədir, onun şahidi olmaq hər nəslin qismətinə düşmür. Bu mənada biz özümüzü xoşbəxt insanlar saya bilərik, ona görə ki, zəmanəmizin böyük siyasi möcuzələrindən birinin-Heydər Əliyevin tarixi qayıdışının şahidləriyik. Bu qayıdış müstəqil Azərbaycan Respublikasını XX əsrin əvvəllərindəki Xalq Cümhuriyyətinin aqibətindən, xalqımızı isə məhv olmaq təhlükəsindən qurtardı. Tamamilə təbiidir ki, sonralar ölkənin ali qanunvericilik orqanı xalqın ən müxtəlif təbəqələrinin arzu və istəklərini nəzərə alaraq ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıtdığı 15 iyun gününü «Milli qurtuluş günü» kimi dəyərləndirmişdir.

Ötən illərdə onun həyata keçirdiyi şərəfli xilaskarlıq missiyası xalqımızın və bütün dünyanın gözü qarşısında cərəyan etmişdir. Bu illərdə ulu öndər Heydər Əliyevin gərgin zəhmət, əzm və siyasi iradə sayəsində reallaşdırdığı nəhəng işlər öz miqyasına görə insanı heyrətə gətirir.

Ölkəni dağılmaq və parçalanmaq həddinə gətirib çıxarmış siyasi, dövlət və hakimiyyət böhranı, vətəndaş müharibəsi təhlükəsi aradan qaldırılmış, dövlət çevrilişi cəhdlərinin, terror aktlarının qarşısı alınmışdır.

Müharibə vəziyyətində olan dövlətə layiq milli ordu yaradılmış, cəbhə xəttində atəşkəs elan edilmiş, Dağlıq Qarabağ münaqişəsinin dinclik̇lə nizama salınmasına dair danışıqlara təkan verilmişdir. Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, Ermənistanın qəsbkarlıq və dövlət terrorizmi siyasətinin ifşa edilməsi üçün ardıcıl tədbirlər görülür.

Daxili ictimai-siyasi vəziyyətin sabitləşdirilməsi nəticəsində Xəzər dənizinin Azərbaycan sektorundakı yataqların işlənilməsinə dair xarici neft şirkətləri ilə 20-dən çox saziş imzalanmış, Azərbaycan iqtisadiyyatına milyardlarla dollar məbləğində investisiya cəlb edilmişdir.

Heydər Əliyevin hakimiyyətə tarixi qayıdışından sonra Azərbaycanda hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğuna, hakimiyyət bölgüsünə və demokratik təsisatların yaranmasına, qanunun aliliyinə təminat verən yeni Konstitusiya ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş, demokratik şəraitdə parlament seçkiləri keçirilmişdir. Bu barədə ulu öndər demişdir: «1995-ci ildə müstəqil Azərbaycanın ilk Milli Konstitusiyası qəbul olundu. Həmin o il Azərbaydanın ilk Milli Məclisi seçildi. Baxmayaraq ki, 1995-ci ildə biz hələ ağır iqtisadi vəziyyətdə yaşayırdıq, ictimai-siyasi vəziyyət ardıcıl surətdə sabitləşdirildi. Bunların hamısı bizə Azərbaycan iqtisadiyyatını inkişaf etdirmək, Azərbaycana xarici investisiyanın cəlb edilməsini təmin etmək, Azərbaycan ordusunu yaratmaq, onu möhkəmləndirmək və insanların rifah halını yaxşılaşdırmaq üçün imkanlar yaratdı.

Mən qeyd etdim ki, Konstitusiyanı qəbul etdik və bu müddətdə çoxsaylı qanunlar qəbul etdik. Hər bir qanunun arxasında Azərbaycanda dövlət quruculuğunu təmin etmək, iqtisadi islahatları həyata keçirmək, siyasi islahatları həyata keçirmək məsələləri durur».

1995-ci ildən bu günədək Milli Məclisdə 2000-dən yuxarı qanunvericilik aktı qəbul edilmişdir. Ölkənin hüquq mühafizə və məhkəmə sistemi Avropa standartları səviyyəsində yenidən qurulmuş, özəlləşdirmənin və aqrar islahatların həyata keçirilməsi üçün lazımi qanunlar qəbul olunmuşdur.

Ölkə ictimai həmrəylik və iqtisadi inkişaf yoluna qədəm qoymuşdur. İstehsalın tənəzzülü dayandırılmış, milli valyutamız möhkəmləndirilmişdir. Ümumi daxili məhsul hər il nəzərəçarpacaq dərəcədə artmış, əhalinin həyat səviyyəsi ilbəil yüksəlmişdir.

Müstəqillik illərində əldə etdiyimiz nailiyyətləri sadaladıqca hər bir azərbaycanlının qəlbi qürur hissi ilə dolur. Bu uğurların qazanılmasında bütün şüurlu həyatını xalqına, vətəninə həsr etmiş, milli tariximizə qurucu və xilaskar rəhbər kimi daxil olmuş Heydər Əliyevin xidmətləri əvəzsizdir. Onun səyləri ilə Azərbaycanın dövlət müstəqilliyi «əbədi, dönməz və sarsılmaz» olmuşdur.

Azərbaycanın siyasi, ictimai, iqtisadi, mədəni, sosial həyatının elə bir sahəsi yoxdur ki, orada Heydər Əliyev qüdrəti, Heydər Əliyev qayğısı, Heydər Əliyev yanğısı hiss edilməsin. Heydər Əliyev qədər xalqına yaxın olan, onun bütün milli xüsusiyyətlərini dərindən bilən, inkişafı üçün bütün qüvvə və bacarığını sərf edən, öz xalqı ilə qürrələnən az siyasətçi vardır.

**Fəxrəddin MƏMMƏDOV,**
*İctimai fənlər kafedrasının professoru*

**◆ "Ulu Öndərin anadan olmasının 94-cü ildönümü münasibətilə və Milli Qurtuluş Günü ərəfəsində «Təbib» qəzetinin oxucularına böyük natiqin estetik dünyagörüşümüzün formalaşmasına kömək edən nitqlərindən söhbət açmaq niyyətindəyəm. Estetik dünyagörüşümüzün formalaşmasında bu zaman həm estetik kateqoriyalar (gözəllik, faciəvilik, komiklik) haqqında, həm də incəsənətin müxtəlif növləri (teatr, rəssamlıq, musiqi və s.) haqqında Heydər Əliyevin fikirlərini sizlərə çatdırmağa çalışdıq.**

# Heydər Əliyevin nitqlərində estetik kateqoriyalar

Estetika "hissiyyatlar" haqqında bir elmdir desək, səhv etmərik. Dərin hissiyyatların, estetik dəyərlərin adi danışıqla, adi eşitmə və görmə ilə ifadə oluna bilməməsini böyük natiq zamanında anladır, estetikanın bir mühüm qolu olan bədii ədəbiyyata hər zaman ehtiyac olduğunu dilə gətirir: "Azərbaycan mənim ürəyimdir. Azərbaycan mənim nəfəsimdir. Azərbaycan mənim həyatımdır. Azərbaycan haqqında hər bir vətəndaş öz ürək sözlərini deyə bilər. Mənim ürəyim daim öz doğma vətənim Azərbaycanla bağlı olubdur, Azərbaycan haqqında hissiyyatlarla dolu olubdur. Bu hissiyyatları sözlə demək mümkün deyildir. Hətta böyük şairimiz Səməd Vurğunun dediyi sözlər də bunun hamısını əhatə etmir. Ancaq şerə ehtiyac olduğuna görə Səməd Vurğunun sözlərini bir daha təkrar etmək istəyirəm:

*El bilir ki, sən mənimsən,*
*Yurdum, yuvam məskənimsən,*
*Anam-doğma Vətənimsən.*
*Ayrılarmı könül candan?*
*Azərbaycan, Azərbaycan!"*

Mühüm estetik kateqoriya kimi gözəllik haqqında müxtəlif fikirləri araşdırmaq və bu fikirləri Ulu Öndərin gözəlliyə olan baxışları ilə tutuşdurmaq yerinə düşər.

Gözəllik haqqında qədim yunan filosoflarından tutmuş müasir estetlərə qədər müxtəlif fikirlərin mövcudluğu yeni bir şey deyildir. Heydər Əliyevin gözəlliyə münasibətinə gəlincə fəlsəfənin ümumi dialektik qanunları estetik sahəyə də şamil olunur. Belə ki, böyük natiqin nitqlərində forma və məzmun ayrılmır: "Azərbaycan qadınlarının bir xüsusiyyəti də vardır: Azərbaycan qadınları çox gözəldirlər. Ümumiyyətlə, gözəllik anlayışını insanlar cürbəcür anlayırlar, dərk edirlər. Bu da təbiidir. Təbiətin də gözəlliyi vardır, hər bir insanın da gözəlliyi vardır. Amma gözəllik əsl mənada cəmiyyətdə olan gözəllikdir və bu, sadəcə, bir xarici görünüş deyildir. Gözəllik həm xarici olur, həm də daxili olur. Ancaq bu gözəllik anlayışının daşıyıcısı həmişə qadınlar olur. Hər bir millətin gözəlliyini nümayiş etdirən qadın olur".

Faciəviliyi digər estetik kateqoriyalardan fərqləndirən cəhətərdən biri münaqişədə olan qüvvələrin böyüklüyü, əhəmiyyətliliyidirsə, digəri insanın ölümünə, ictimai hərəkatın, ideallarin məhvinə səbəb olan konfliktlərin həlledilməzliyidir.

Böyük natiqin dilində "bu təcavüz nəticəsində həlak olanlar xalq qəhrəmanlarıdır" ifadəsi estetikadakı "qəhrəmanlıq-faciəvilik və ülviliyin ortaq modifikasiyasıdır" ifadəsinin siyasi lider dilində təsdiqidir.

Komiklik də estetikanın mühüm kateqoriyalarından hesab olunur. Komiklik çox geniş şəkildə ancaq ədəbiyyatda, teatrda və kinoda öz təzahürünü və inkişafını tapır. Bu kateqoriya böyük natiqin dilində ən çox Üzeyir Hacıbəyovun «Məşədi İbad» komediyası ilə bağlıdır: " Bəzən bu «Məşədi İbad» xalq arasında gülməli bir tamaşa kimi qəbul edirlər. İnsanlar gəlir, baxır, gülür, əylənir və hesab edirlər ki, elə bunun mənası budur. Ancaq bunun çox dərin bir mənası vardır. Bilirsiniz, bu əsər dahi bir əsərdir. Üzeyir Hacıbəyovun əsərlərinin hamısı dahi əsərlərdir... Mən əvvəllər də bu əsər haqqında belə düşünmüşəm. Amma bu gün bir daha bunu başdan-ayağa gördüm. Bir var ki, buna televiziyada kinoya baxırsan, bir də var ki, səhnədə canlı insanlara baxırsan və şübhəsiz ki, onların ifaçılıq sənətini qiymətləndirərək, eyni zamanda hər obrazın əhəmiyyətini görərək mən şəxsən belə qənaətə gəlirəm ki, bu əsər dahi bir əsərdir. Bu, heç də gülmək üçün yazılmayıbdır, bəlkə də bəzilərinin ağlaması üçün yazılıbdır. Bu, zamanın reallığıdır, faciəsidir".

İncəsənətin ən mühüm və ən qədim növlərindən biri də musiqidir. Musiqi də digər incəsənət növləri kimi gerçəkliyin bədii obrazlardakı inikasıdır. Məşhur İspaniya müğənnisi Xulio İqlesias ilə görüşdəki söhbətdə Heydər Əliyevin musiqi ilə bağlı estetik fikirlərinin şahidi oluruq: " Bəzən bizim böyük konsertlərimiz olur - bir saat otuz dəqiqə, bir saat iyirmi dəqiqə. Orada müxtəlif nömrələr göstərirlər. Amma bir saat iyirmi dəqiqədən sonra adam yorulur. Sizi isə iki saat yarım dinləyəndən sonra mən şəxsən yorulmadım. Əksinə, daha da ruhlandım, daha da çox enerji aldım. Güman edirəm, salondakıların hamısı belə idi".

Bu kiçik mətndə miqdar saylarının köməyi ilə vaxt, zaman estetik dəyərlərlə harmonik şəkildə çulğalaşır. Heydər Əliyevin nitqində "ruhlandım", "enerji aldım" kimi ifadələr estetik lüğətdə estetik həzzin sinonimidir. "Sizi iki saat yarım dinləyəndən sonar mən şəxsən yorulmadım" ifadəsi musiqinin estetik tələbata çevrildiyini, insanlarda ən böyük zövq mənbəyi olduğunu sübut edir.

H.Əliyevin nitqlərindəki estetik mətn parçaları rəssamların gələcəkdə çalışmaları üçün mövzu rolu oynayır. Bu mətnlər incəsənət xadimləri, incəsənət işçiləri üçün direktiv tapşırıq rolunu oynayır: "Ancaq indi yaşadığımız dövr - Azərbaycanın öz müstəqilliyini əldə etməsi və onu müdafiə etməsi, torpaqlarını qorumaq uğrunda vuruşması, xalqımızın qanının tökülməsi, şəhidlik verməsi, bir milyondan artıq qaçqın və onların vəziyyəti - bunlar Azərbaycan tarixinin böyük bir səhifəsidir. Bu, gərək bütün mədəniyyət və incəsənət ustalarımızın əsərlərində öz əksini tapsın. Mən arzu edirəm ki, rəssamlarımız da bu dövrü öz əsərlərində əks etdirsinlər".

İncəsənətin canlı növü olan teatr bu estetik zənginliyi auditoriyaya daha asan bir dildə çatdırır. Bu estetikliyin çatdırılması Heydər Əliyevin dilində belə səslənir:"Güman edirəm ki, Bəxtiyar müəllim incimez - bu əsəri səhnədə görməyən adam kitabı oxusa, bu təəssüratı ala bilməz".

Beləliklə, Heydər Əliyevin nitqlərindəki estetik mətnləri bir qəzet məqaləsində işıqlandırmaq mümkün deyil. Güman edirəm ki, üzərində işlədiyimiz "Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti" monoqrafiyasında oxucularımız etik və estetik dünyagörüşümüzün formalaşmasına kömək edən araşdırmalarla tanış olacaqlar.

**Nağdəli ZAMANOV,**
*I daxili xəstəliklər və renimatologiya kafedrasının dosenti*

# ATU-da 2016-2017-ci tədris ilinin yekun Dövlət imtahan sessiyası başlandı

**İyunun 2-dən etibarən Azərbaycan Tibb Universitetində yekun dövlət imtahanları başlayıb.**

## Rektor yekun dövlət imtahanlarına baxış keçirib







İyunun 1- də ATU-nun rektoru, professor Gəray Gəraybəyli imtahanlara baxış keçirib. Dövlət İmtahan Komissiyasının üzvləri və nəzarətçilərlə görüşən rektor prosesin gedişi ilə maraqlanıb, imtahanlarla bağlı öz tapşırıq və tövsiyələrini verib, tələbələrə uğurlar arzulayıb.

Məlumat üçün bildirək ki, artıq beş ildir ATU-da imtahanlar obyektivliyin tam qorunması məqsədilə test üsulu ilə, kompüterlər vasitəsilə aparılır. İmtahan şərtlərinə görə, tələbələr 1 saat ərzində 50 sualı cavablandırmalıdırlar. Belə ki, hər sual bir balla qiymətləndirilir və yığıla biləcək ən yüksək bal 50-dir.

İmtahanlar zamanı Virtual Test Mərkəzində 220 kompüter tələbələrin ixtiyarına verilir. Gün ərzində bu mərkəzdə 2500-3000 tələbənin imtahan verməsi mümkündür. Hər tələbə öz məxfi kodu ilə sistemə daxil olaraq sualları cavablandırır və sonda imtahanın nəticəsini öyrəndikdən sonra zalı tərk edir. İmtahanların gedişinə müşahidə kameraları və imtahanlara nəzarət qrupunun əməkdaşları tərəfindən nəzarət olunur.

İmtahanın obyektiv və şəffaf keçirilməsi universitet rəhbərliyinin daim nəzarəti altındadır. İmtahanlar müalicə-profilaktika, stomatologiya, əczaçılıq, tibbi profilaktika və hərbi tibb fakültələrində aparılır.

* * *

Rektor G.Gəraybəyli görüş zamanı toplantı iştirakçılarından bəzilərinin artıq imtahana nəzarətlə bağlı təcrübəsinin olduğunu bildirib. Qeyd olunub ki, iyunun 2-dən 23-dək ATU-da



Dövlət yekun attestasiya imtahanları və magistrlərin diplom işinin müdafiələri gedir. Rektor ötən ildən etibarən imtahanların 2 pilləli şəkildə aparıldığını diqqətə çatdırıb: "İlk mərhələdə tələbələrin təcrübi bacarıqları OSKİ imtahanı ilə yoxlanılır, ikinci mərhələdə isə nəzəri suallar əsasında imtahanlar verilir. Həmçinin, yeganə olaraq ATU-da Apellyasiya Komissiyası yaradılıb ki, bu komissiya da artıq ayrı-ayrı fakültələr üzrə yox, ümumi formada fəaliyyət göstərəcək. Bütün imtahanlarda yaranacaq apellyasiya məsələlərinə bu komissiya tərəfindən baxılacaq ".

G.Gəraybəyli bildirib ki, tələbələrin özləri də OSKİ imtahanlarının tətbiqindən razı qalıblar. Onların rəyini öyrənmək məqsədilə imtahan keçirilən zallara qutular qoyulub və tələbələr anonim olaraq imtahan prosesi zamanı rastlaşdıqları bir sıra məqamları, həmçinin yeni OSKİ imtahanları ilə əlaqədar öz fikirlərini yazıb həmin qutuya atıblar.

Sonra tədris və müalicə işləri üzrə prorektor, professor Sabir Əliyev imtahanların təşkili ilə bağlı sərəncamları iştirakçıların diqqətinə çatdırıb. O, imtahanda nizam-intizamın böyük əhəmiyyət daşıdığını bildirərək qeyd edib ki, komissiya sədrləri və üzvləri tələbələrə düzgün davranış qaydalarını izah etməlidirlər. İclasın sonunda tədris hissə müdiri, dosent Nəsimi Qasımov toplantı iştirakçılarını müvafiq əmrlərlə tanış edib.

* * *

## Rektor yekun dövlət attestasiya imtahanlarını izləyib

Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli iyunun 6- da Tədris Cərrahiyyə Klinikasında keçirilən yekun dövlət attestasiyası imtahanlarını izləyib. İmtahanın gedişi ilə yaxından tanış olan rektor, proseslə bağlı imtahan komissiyasının üzvləri ilə söhbət edib.

Qeyd edək ki, tələbələr müvafiq fəndən bacarıq imtahanını verdikdən sonra test üsulu ilə nəzəri imtahanlara keçid alırlar. OSKİ imtahanları beynəlxalq standartlara cavab verən bir sınaq üsuludur. Dünyanın əksər ölkələrinin tibb universitetlərində imtahanlar bu üsulla aparılır.

* * *

## Rektor xarici tələbələrin hazırlıq səviyyəsi ilə də maraqlandı

Azərbaycan Tibb Universitetində imtahan sessiyası davam edir. Yekun dövlət attestasiya imtahanları ilə yanaşı, ATU-da təhsil alan xarici tələbələrin hazırlıq səviyyəsi ilə bağlı da imtahanlar keçirilir.

İyunun 7- də ATU-nun rektoru, professor Gəray Gəraybəyli bu ali tibb ocağında təhsil alan xarici tələbələrin hazırlıq şöbəsinin şifahi dil imtahanında iştirak edib. G.Gəraybəyli imtahan prosesinin gedişini müşahidə edib və imtahanın keçirilməsi üçün yaradılan şəraitlə tanış olub.

İmtahan prosesinə qatılan G.Gəraybəyli xarici tələbələri sorğu-suala çəkib, onların dil biliklərini yoxlayıb, imtahanın təşkili və gedişi ilə əlaqədar müəllim və nəzarətçilərə öz tövsiyələrini verib.

Qeyd edək ki, 597 nəfər imtahanı uğurla verərək, I kursa qəbul olmaq üçün müsabiqədə iştirak etmək hüququ qazanıblar.

# Dağıstanlı tələbələrin ATU-dakı yay təcrübəsi başa çatıb

İyunun 1-də Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli universitetdə yay təcrübəsi keçən dağıstanlı tələbələrlə görüşüb.

Praktika müddətində ATU-nun qonağı olan, Dağıstan Dövlət Tibb Universitetinin terapiya fakültəsinin professoru Ali Hüseynov bu müddət ərzində tələbələr üçün yaradılan şəraitə görə rektor G.Gəraybəyliyə təşəkkür edib: "Tələbələrimiz üçün ATU-nun yataqxanalarında çox gözəl şərait yaradılmışdı. Bizim üçün universitetin özünün klinikalarının olması hələlik bir xəyal olaraq qalır. Sizin klinikalarda həm tədris, həm də keyfiyyətli tibbi xidmət üçün hər cür şərait var. Bu səfər bizim tələbələrimiz üçün unudulmaz bir təcrübə olacaq".

Sözünə davam edən A.Hüseynov deyib ki, Azərbaycan Tibb Universitetində təcrübə keçmək istəyən tələbələrin sayı hədsiz çox olduğundan, gərgin müsabiqə nəticəsində ən layiqli 7 namizəd seçilib.

ATU-nun rektoru, professor Gəray Gəraybəyli də öz növbəsində xoş sözlər üçün dağıstanlı həmkarına təşəkkür edib. Rektor bildirib ki, bu proqram ATU ilə Dağıstan Dövlət Tibb Universiteti arasında mövcud əməkdaşlıq müqaviləsi çərçivəsində atılan ilk addım kimi qiymətləndirilə bilər.

G.Gəraybəyli bundan sonra ali məktəblər arasında qarşılıqlı əməkdaşlığın daha da gücləncəyinə ümid etdiyini bildirib.

Qeyd edək ki, 2 həftə davam edən praktika müddətində dağıstanlı tələbələr ATU-nun həm Tədris Terapevtik, həm də Tədris Cərrahiyyə klinikalarında işləyiblər. Onlar ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Nadir Zeynalovun müşayiəti ilə Bakının görməli yerlərini də gəziblər. Görüşün sonunda çıxış edən dağıstanlı tələbələr ATU-dakı xoş münasibət və yaradılan yüksək şərait üçün universitet rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

* * *

Rektorla görüşdən sonra Dağıstan Dövlət Tibb Universitetinin Fakültətiv Terapiya kafedrasının professoru Ali Hüseynov Tədris



Terapevtik Klinikada tələbə və rezidentlərə "Bronxial astma və ağciyərin xroniki obstruktiv xəstəlikləri" mövzusunda mühazirə oxuyub.

Xəstəliyin müasir diaqnostikası və müalicə metodları barədə geniş məlumat verən A.Hüseynov bildirib ki, bütün dünyada bu problem aktualdır və biz mütəmadi olaraq yeni müayinə üsullarının tətbiqi ilə bağlı araşdırmalar aparırıq.

Daha sonra pulmonoloq Əlizamin Sadıqov çıxış edərək "Ağciyərlərin xroniki obstruktiv xəstəliklərinin müasir müalicəsi və metodikası" barədə tələbə və rezidentlərə önəmli bilgilər açıqlayıb.

ATU-nun mətbuat xidməti

# ATU-da İctimai Nəzarət və Məsləhət Şurası yaradıldı

## İlk dəfə olaraq Şuraya valideyn və tələbə də daxil edilib

**Azərbaycan Tibb Universitetinin Böyük Elmi Şurasının 30 may 2017-ci il tarixli qərarıyla ATU Rektoru yanında İctimai Nəzarət və Məsləhət Şurasının yaradılmasına qərar verilib. Artıq şuranın 9 nəfərdən ibarət tərkibi formalaşıb.**



Şuranın tərkibinə millət vəkili, həkim qastroentroloq İlham Məmmədov, Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun Prezidenti Rauf Zeyni, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində fəaliyyət göstərən "Asan" radionun direktoru Emin Musəvi, İctimai Televiziyada "İctimai siyasi proqramlar" Departamentinin direktoru Anar Yusifoğlu, "İki sahil" qəzetinin redaktoru, Mətbuat Şurası İdarə Heyətinin üzvü - Vüqar Rəhimzadə, Azərbaycan Respublikası Təhsil Nazirliyi "SABAH" qruplarının tədris işləri üzrə rəhbəri, "Sosial Hüquqların Araşdırılması" İctimai Birliyinin hüquqşünas-eksperti Eldar Qocayev, "Cəmiyyətin və Vətəndaş Münasibətlərinin İnkişafı" İctimai Birliyinin sədri, QHT-lərin Antikorrupsiya Şəbəkəsinin üzvü Əhməd Abbasbəyli, ATU-nun Əczaçılığın texnologiyası və idarəçiliyi kafedrasının baş müəllimi, "Gənc vətəndaş" İctimai Birliyinin sədr müavini Aidə Bəndəliyeva və ATU-nun tələbəsi Məhərrəm Alimli daxildir.

Bu günlərdə rektor, professor Gəray Gəraybəyli yeni yaradılmış qurumun üzvləri ilə görüşərək şuranın yaradılmasının məqsədləri haqqında məlumat verib. Qeyd edib ki, istənilən ali məktəbdə gedən proseslərin düzgün və şəffaf, ədalətli və tələbələrin xeyrinə yönəldilməsində ictimaiyyətin rolu vacibdir. Rektor bu qərarın elmin, təhsilin, səhiyyənin inkişafına xidmət edəcəyindən əminliyini bildirib.

G.Gəraybəyli görüş iştirakçılarını hazırda ATU-da keçirilən dövlət yekun attestasiya imtahanlarını izləməyə dəvət edib: "Yəqin ki, Şura işə başlayan kimi imtahanların gedişi ilə tanış olacaq. Fakültələrimiz üzrə yekun dövlət attestasiya imtahanları 2 mərhələdə keçirilir. Birinci mərhələdə tələbələr bacarıq imtahanlarından keçirlər. Bu mərhələdə tələbələr 3 fənndən imtahan verirlər: cərrahiyyə, terapiya (daxili xəstəliklər) və mamalıq-ginekologiya. Bacarıq imtahanları yeni Obyektiv Strukturlaşmış Klinik İmtahan - OSKİ imtahan üsulu ilə aparılır. Azərbaycan Tibb Universiteti olaraq bu imtahan növünə əvvəlki illərdə keçsək də, bu üsulu indi daha təkmilləşmiş formada aparırıq."

G.Gəraybəyli onu da bildirdi ki, ATU-da gedən proseslərin şəffaflığını təmin etmək məqsədilə artıq bir neçə aydır ki, mütəmadi olaraq tələbələrlə görüşlər keçirir. Tələbələr onları narahat edən məsələlərlə bağlı şəxsən rektora məlumat verir, bir sıra problemlərin həlli ilə bağlı məsələ qaldırırlar.

Daha sonra İctimai Şura üzvləri çıxış edərək bildirdilər ki, qurumun əsas işi ATU-da gedən proseslərin, görülən işlərin faydalılığını və səmərəliyini ortaya çıxarmaqdır. Bundan əlavə, universitet daxilində hər hansı problemlər yaranarsa, onların həllinə çalışılacaq, bununla bağlı rəhbərliyə təkliflər veriləcək. Bu, universitetin işində vətəndaş cəmiyyətinin iştirakının təmin olunmasıdır. Şura üzvləri ictimai nəzarətlə bağlı işlərin daha effektiv şəkildə qurulması üçün təkliflərini verdilər.

ATU-nun nəzdində yaradılan bu şurada ilk dəfə olaraq tələbə və valideyn də şura üzvləri sırasındadır. Millət vəkili, həkim qastroentrloq İlham Məmmədov şuranın sədri, ATU-nun Əczaçılığın texnologiyası və idarəçiliyi kafedrasının baş müəllimi Aidə Bəndəliyeva sədr müavini, Əhməd Abbasbəyli isə katibi seçilib.

Onu da qeyd edək ki, ATU-nun rektorluğu yanında yaradılan İctimai Nəzarət və Məsləhət Şurası "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının 06 yanvar 2014-cü il tarixli Qanununa uyğun olaraq formalaşdırılır. Şura vasitəsilə Azərbaycan Respublikası vətəndaşları Azərbaycan Tibb Universitetində idarəetmənin həyata keçirilməsinə cəlb edilir. ATU-nun rektorluğu yanında yaradılacaq İctimai Nəzarət və Məsləhət Şurasının əsas məqsədi universitetin fəaliyyətinə ictimai nəzarətin həyata keçirilməsi, universitet ilə ictimaiyyət arasında səmərəli qarşılıqlı əlaqələrin təşkili, fəaliyyətində aşkarlığın və şəffaflığın təmin olunması, əməkdaşların və təhsil alanların hüquqlarının müdafiəsi və fəaliyyətinin təkmilləşdirilməsi üçün təkliflərin verilməsindən ibarətdir.

# Gülhanə Hərbi Tibb Akademiyasının professoru ATU-nun qonağı olub

**Gülhanə Hərbi Tibb Akademiyasının rəhbərinin elmi işlər üzrə yardımçısı, professor Hayati Bilgiç Azərbaycan Tibb Universitetinin qonağı olub. Türkiyəli müsafir ATU-nun rektoru, professor Gəray Gəraybəyli ilə görüşüb.**



Görüşdə rektor Gəray Gəraybəyli bildirib ki, rəhbərlik etdiyi ali təhsil ocağı ilə Türkiyə universitetləri arasında sıx əlaqələr mövcuddur. Tibb Universiteti müntəzəm olaraq qardaş Türkiyədən qonaqlar qəbul edir. G. Gəraybəyli qeyd edib ki, 2000-ci ildə ümummilli lider Heydər Əliyev tərəfindən ATU-da Hərbi tibb fakültəsi yaradılıb: "Artıq 17 ildir ki, bu fakültə universitetimizdə fəaliyyət göstərir. Bu illər ərzində 400-dən çox məzunumuz olub. Hazırda bu fakültədə 480-ə yaxın tələbə təhsil alır".

Rektor təhsil sistemi barədə də türkiyəli professora məlumat verib. Bildirib ki, artıq 7 ildir burada iki pilləli təhsil sistemi tətbiq edilir: "2010-cu ildən Hərbi tibb fakültəmizdə rezidentlər də hazırlanır və indiyədək 20-ə yaxın rezident məzun olub. Hazırda isə müxtəlif ixtisaslar üzrə 50-yə yaxın rezident hazırlanır. Biz Hərbi tibb fakültəsinin gücləndirilməsinin marağındayıq. Dəfələrlə elmi şuralarımızı fakültənin fəaliyyətinə, burada tələb olunan dəyişikliklərə həsr etmişik. Kafedra müdirlərinə tapşırmışıq ki, bu fakültəyə ən güclü müəllimləri cəlb etsinlər".

Gülhanə Hərbi Tibb Akademiyasının rəhbərinin elmi işlər üzrə yardımçısı, professor Hayati Bilgiç ATU-nu ziyarət etməsindən məmnun olduğunu bildirib. 15 il öncə Bakıya gəldiyini xatırladan türkiyəli professor şəhərin inanılmaz dərəcədə dəyişdiyini və gözəlləşdiyini deyib. Bakıda yeni təhsil ocaqlarının yaradıldığını müsbət qiymətləndirib. Özü haqqında məlumat verən professor Ankara Universitetinin Tibb fakültəsinin məzunu olduğunu deyib: "Bu səbəbdən də hərbi tibb işçisi, rezidentlərin yetişdirildiyi Azərbaycan Tibb Universiteti mənim üçün çox önəmli bir təhsil ocağıdır.

Azərbaycan Tibb Universitetinin hərbi tibb sahəsində əldə etdiyi uğurlar bizi qürurlandırır. Bizim universitetlərin də bu sahədə olan biliklərini sizinlə bölüşmək istəyirik. Universitetlərimiz və müəllimlərimiz bu sahəyə aid bütün yeniliklərlə bağlı sizə kömək etməyə, iş birliyi qurmağa hər zaman hazırdır".

Görüşün sonunda qarşılıqlı əlaqələrin genişləndirilməsi və ATU-nun Hərbi tibb fakültəsinin inkişafı istiqamətində addımların atılmasına qərar verilib.

# Rektor Stavropolda olimpiadada iştirak etmiş tələbələrlə görüşüb

- **Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli Stavropolda keçirilən olimpiadada uğurla iştirak edən tələbələrlə görüşüb. Rektor yarışmada nailiyyət əldə edən tələbələri təbrik edərək onlara təşəkkürünü bildirib.**



G.Gəraybəyli Azərbaycan Tibb Universiteti bu cür aktiv və bacarıqlı, savadl tələbələrin olimiadada uğurla təmsil etdiyinə görə şad olduğunu bildirib: "Azərbaycan Tibb Universitetinin Stavropol Dövlət Tibb Universiteti ilə əməkdaşlıq haqqında müqaviləsi var. Çox şadam ki, artıq həmin saziş əsasında bu cür fəaliyyətlər yerinə yetirilir. Tələbələri maraqlandıran, onların inkişafına yol açan belə tədbirlərdə iştirakınıza görə sevinirik".

Rektor G.Gəraybəyli həmçinin yaxın gələcəkdə ATU-da tədris sistemində bir sıra dəyişikilərin planlaşdırıldığını, bu prosesdə aktiv və bacarıqlı tələbələrin iştirakına ehtiyac olduğunu dedi: "Biz nəzəriyyə ilə yanaşı, praktik biliklərin tədrisini artırmağı düşünürük. Bu məsələlərin həllində sizin köməyinizə, sizin qazandığınız biliklərə ehtiyacımız var. Sizlər aşağı kurs tələbələri ilə öz biliklərinizi, təcrübənizi bölüşə bilərsiz".

Görüş zamanı ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Nadir Zeynalov keçirilən olimpiada haqqında məlumat verdi. Onun sözlərinə görə, 19-20 may 2017-ci il tarixlərində Rusiyanın Stavropol şəhərində tibb universitetləri arasında "Asklepiy" Beynəlxalq Olimpiadası baş tutub: "Stavropol Dövlət Tibb Universitetinin təşkilatçılığı ilə keçirilən yarışmada 15 komanda iştirak edib. Azərbaycan Tibb Universiteti bu yarışmada "AMU Fires" komandası ilə təmsil olunub. Komandanın tərkibinə universitetin II, IV və V kurs tələbələri daxil olublar".

Olimpiadada iştirak etmiş komanda üzvləri də yarışma haqqında təəssüratlarını bölüşüblər. Bu yüksək münasibət və onlara yaradılan şəraitə görə rektora təşəkkürlərini bildiriblər.

ATU-nun mətbuat xidməti

# “Onko-Hematolojide Yeni Yaklaşımlar” mövzusunda elmi – tibbi konfrans keçirilib

**İyunun 10-da Tədris Terapevtik Klinikada Azərbaycan Tibb Universitetinin və Vehbi Koç Vakfı Sağlıq Qurumlarının (Amerikan Xəstəxanası, Koç Universiteti Xəstəxanası) birgə təşkilatçılığı ilə “Onko-Hematolojide Yeni Yaklaşımlar” mövzusunda elmi – tibbi konfrans keçirilib.**



Konfransı giriş sözü ilə açan ATU-nun elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov iştirakçıları universitetin rektoru, professor Gəray Gəraybəylinin adından salamlayaraq, onlara konfransın işində uğurlar arzulayıb.

R.Bəylərov bildirib ki, hematoloji bəd xassəli xəstəliklər, limfom xəstəliyi, limfoma və s. bütün bəd xassəli xəstəliklərin təxminən yarısını təşkil edir: “Bu gün Klinikamızda beynəlxalq standartlara uyğun göstərilən xəstəliklərin diaqnostikasına nail olunmuş və onların müalicəsi dünyada qəbul



olunmuş son protokollar əsasında aparılır. Bu isə öz növbəsində hematoloji bəd xassəli xəstəlikləri olan xəstələrin yaşamaq müddətinin artırılmasına və onların həyat keyfiyyətinin yaxşılaşdırılmasına xidmət edir. Hətta bəzi hallarda belə xəstələrin tam sağalmasına da nail olunur”.

Bu sahənin də daima dövlətin qayğısı və nəzarətində olduğunu qeyd edən R.Bəylərov son illərdə səhiyyənin bu sahəsinə aid iki qanun (“Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında” və “Qanın, qan komponentlərinin donorluğu və qan xidməti haqqında”) və onların həyata keçirilməsi məqsədilə 3 dövlət proqramı (“Talassemiya ilə mübarizəyə dair Dövlət Proqramı”, “Hemofiliya ilə mübarizəyə dair Dövlət Proqramı”, “Qanın, qan komponentlərinin donorluğu və qan xidmətinin inkişafına dair Dövlət Proqramı”) qəbul edilib. Bu sahədə 3-cü beşillik proqramın həyata keçirilməsinə də başlanılıb.

Daha sonra ATU-nun Tədris Terapevtik Klinikasının hematologiya şöbəsinin müdiri Valeh Hüseynov çıxış edib.

O, Universitetin Tədris Terapevtik Klinikasında yaradılan hematologiya şöbəsi haqqında konfrans iştirakçılarına ətraflı məlumat verib: “Şöbə 2014-cü ilin may ayından etibarən fəaliyyətə başladı. Çox az personalla şöbəni yaratdıq. Amma buna baxmayaraq qısa zamanda şöbə müasir standartlara uyğun cihazlarla təmin edildi. Həkim-rezidentlərimizin daha savadlı mütəxəssis kimi yetişməsi üçün Türkiyədə müxtəlif universitetlərlə əməkdaşlıq sayəsində onları ora göndərdik. Mütəmadi olaraq Türkiyə universitetləri ilə müzakirələr aparırıq və bu da şöbənin fəaliyyətinə öz müsbət töhfələrini verir. İnanıram ki, bu əməkdaşlığımız davamlı olacaq”.

Koç Universiteti haqqında məlumatı sözügedən universitetin əməkdaşı İpek Nevruzoğlu konfrans iştirakçılarına çatdırıb və universitet haqqında daha geniş bilgiyə sahib olmaq üçün video-çarx da təqdim edib.

Konfransın davamında Amerikan Xəstəxanasının hematologiya bölməsinin professoru Ahmet Burhan Ferhanoğlu, Koç Universitetinin professoru Meltem Akay və həmin universitetin Tibbi Onkologiya bölməsinin həkimi Fatih Selçukbiriciyin çıxışları dinlənilib.

# Dünya şöhrətli radioloq ATU-da mühazirə söylədi

**ATU-nun Tədris Cərrahiyyə Klinikasında dölün exokardioqrafiyanın banisi sayılan professor Filip Jentinin iştirakilə (Philippe Jeanty) seminar keçirilib.**





Dünya şöhrətli radioloq-sonoqrafist, dölün exokardioqrafiyası üzrə mütəxəssis Filipp Jenti “Azerbaijan Fetal Education Research Group” və Azərbaycan Tibb Universitetinin birgə təşəbbüsülə ATU-da təşkil olunan iki günlük seminara qatılıb. Professor Jenti ana bətnindəki dölün ürəyinin daha dərindən dinlənilməsi, dölün anatomik anomaliyalarının ultrasəs müayinəsi vasitəsilə müəyyənləşdirilməsinə dair “Ürəyin disseksiyası” mövzusunda mühazirə ilə çıxış edib.

Tədris Cərrahiyyə Klinikasının pediatrik-invaziv kardioloqu Elşən Rzayevin sözlərinə görə, bu məruzə hər bir kardioloq, radioloq üçün çox önəmlidir: “Professor Filipp Jenti radioloqlar aləmində canlı əfsanə hesab olunur. Bu sahədə işləyən mütəxəssislər tibbdə əldə olunan nailiyyətlər, yeniliklərdən daim xəbərdar olmalıdırlar. Bu baxımdan, təşkil olunan seminarın böyük əhəmiyyəti var”.

Konfransda qeyd olunub ki, Filipp Jenti dünyanın bütün həkimlərinin işlətdiyi ultrasəs cihazlarında dölün ölçülərini izləməyə imkan verən çarxları kəşf edib. Professor 120-dən çox ölkədə mühazirələrlə çıxış edib. Dölün exokardioqrafiyası ultrasəs müayinənin bir növüdür. Bu müayinə ana bətnində olduğu zaman döldəki anadangəlmə ürək qüsurlarını və digər xəstəlikləri aşkarlamağa imkan verir. O, 34 dərslik, 154 elmi məqalənin müəllifidir.

Professor Jenti həm də” TheFetus” saytının yaradıcısıdır. Burada sonoqrafla bir çox maarifləndirici informasiyanı əldə edir, həm də təcrübə mübadiləsi aparırlar.

Qeyd edək ki, ATU-da keçirilən seminarda yalnız universitetin əməkdaşları yox, respublika üzrə dölün exokardioqrafiyası ilə maraqlanan bir çox mütəxəssislər iştirak ediblər.

# Pediatr Endokrinoloqlar Cəmiyyətinin növbəti iclası keçirildi

- Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında pediatr endokrinoloqlar cəmiyyətinin növbəti iclası keçirilib.



İclasda cinsiyyətin formalaşması, uşaqlarda gender identikliyi və psixoseksual inkişafın problemləri və bu mövzuya uyğun olan klinik hallar müzakirə olunub.

İclasda çıxış edən Beynəlxalq Tibb Təlimi Kursunun təlimçisi Faiq Məmmədov “Cinsiyyətin formalaşmasının embrioloji, fizioloji, patoloji əsasları”ndan danışıb.

O, cinsiyyətin ana bətnindən başlayaraq hansı ardıcıl mərhələlərdən keçməsi, kişi və qadın cinsiyyətinin embrional inkişafının neçənci həftəsində formalaşması və hansı hormonal dəyişikliklərə məruz qalması haqda ətraflı məlumat verib.

Daha sonra “Uşaqlarda gender identikliyi pozuntusu və psixoseksual inkişafda problemlər” mövzusunda Bakı Dövlət Universitetinin əməkdaşı, psixoloq Günel Aslanova çıxış edib.

O, müxtəlif yaş dövrlərində qız və oğlanlarda baş verən psixoloji dəyişiklikləri, uşaqların öz cinsiyyətlərini necə başa düşmələri barədə danışıb və çoxsaylı suallara cavab verib.

Sonda 6 saylı uşaq klinik xəstəxanasının pediatr-endokrinoloqu Nabat Ağayeva “İkili cinsiyyətə aid klinik situasiyanın müzakirəsi” mövzusunda maraqlı klinik bir halı müzakirəyə çıxarıb.

# Universitetimizin nümayəndəsi Portuqaliyada simpoziumda çıxış edib




**ATU-nun qulaq, burun və boğaz xəstəlikləri kafedrasının şöbə müdiri Yusif Hacıyev Portuqaliyanın Lissabon şəhərində keçirilən simpoziumda çıxış edib.**

O, 13-cü Avropa Pediatrik Koxlear İmplant Simpoziumunda iştirak edib, təcrübələrini paylaşıb.

Qeyd edək ki, koxlear implant artıq uzun illərdir dünyanın bir çox ölkələrində hər iki qulağa tətbiq olunur. Bu, uşaqların nitq və zehin inkişafında böyük rol oynayır.

ATU-nun mətbuat xidməti

Yubileylər

# Kamil insan, istedadlı alim

**Ramiz Atabala oğlu Axundov 17 İyun 1942-ci ildə Bakı şəhərində anadan olmuşdur.**

1961-ci ildə Bakı şəhərində orta məktəbi bitirmiş və həmin ildə N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun əczaçılıq fakültəsinə daxil olmuşdur. 1966-cı ildə İnstitutu bitirərək Bakı şəhər baş apteklər idarəsində əmək fəaliyyətinə başlamışdır. Elmə olan həvəsi onu yenidən Azərbaycan Tibb İnstitutuna qaytarmış və 1971-ci ildə farmakologiya ixtisası üzrə əyani aspiranturaya daxil olmuşdur. 1974-cü ildə dissertasiya işini müvəffəqiyyətlə müdafiə edərək biologiya elmləri namizədi alimlik dərəcəsi almışdır.

Gənc alim həmin gündən N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun Mərkəzi Elmi Tədqiqat laboratoriyasına kiçik elmi işçi vəzifəsinə qəbul edilmiş və sonrakı həyatını bu elmi müəssə ilə bağlamışdır. Əmək fəaliyyətinə başladığı ilk gündən farmakoloji tədqiqatlara xüsusi həvəs göstərən gənc alim METL-də farmakologiya və toksikologiya qrupu yaratmağa nail olmuşdur. Onlarla tədqiqatçı bu qrupda elmi axtarışlar aparmış və Ramiz Axundov onlara yüksək səviyyədə elmi metodik kömək göstərmişdir. 1976-cı ildə R.Axundov müsabiqə yolu ilə baş elmi işçi vəzifəsinə seçilmişdir. Ramiz müəllimin gərgin elmi axtarışları və bu qrupun yaradıcılıq qabiliyyətini nəzərə alan institut rəhbərliyi tərəfindən 1990-ci ildə METL-də Farmakologiya və toksikologiya şöbəsi yaradılmış və o, müsabiqə yolu ilə şöbə müdiri vəzifəsinə seçilmişdir.

R.Axundov 1984-cü ildə keçmiş SSRİ-nin paytaxtı olan Moskva şəhərində yerləşən Tibb Elmləri Akademiyasının Farmakologiya İnstitutuna ezam olunmuş və həmin institutda 1989-cu ildə müvəffəqiyyətlə doktorluq dissertasiyası müdafiyə edərək biologiya elmləri doktoru adına layiq görülmüşdür. 1992-ci ildə müsabiqə yolu ilə farmakologiya kafedrasında professor vəzifəsinə seçilmişdir.



Ramiz Axundov Azərbaycanda mərhum professor İ.İbrahimovun sintez etdiyi "nikomorfolin" adlı bioloji fəal maddənin farmakoloji xususiyyətlərini öyrənmiş və onu dərman preparatı formasına salmışdır. Keçmiş SSRİ-nin məşhur farmakoloqları olan Akademik Maşkovskinin və akademik Lakinin rəhbərlik etdiyi laboratoriyalarda öz təsdiqini tapdıqdan sonra kliniki tətbiqinə dair SSRİ Səhiyyə Nazirliyinin farmakoloji komitəsinin qərarı alınmışdır.

Hazırda üzərində işlədiyi hipoksiya və onunla bağlı problemlərin araşdırılmasında əsaslı nəticələr əldə edilmişdir.

Ramiz Axundov elmi kadrların hazırlığında da mühüm rol oynamış və bir cox tədqiqatçıya elmi, metodik kömək göstərmiş, onlarla dissertantlara rəsmi opponent olmuşdur. Onun rəhbərliyi altında 4 nəfər dissertasiya müdafiə edərək elmlər namizədi adına layiq görülmüşlər.

İstedadlı alim olan professor R.Axundov 2 monoqrafiyanın, 220 elmi məqalənin, 30 müəlliflik şəhadətnaməsinin, 6 patentin və 3 səmərələşdirici təklifin müəllifidir.

O, Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasında Ekspert Şurasının üzvü, Səhiyyə Nazirliyinin Elmi Tibbi Şurasının Əczaçılıq və Farmakologiya üzrə Problem Komissiyasının sədri olmuşdur.

Hazırda Səhiyyə Nazirliyinin Farmakologiya və Farmakopeya Şurasının, ATU-da fəaliyyət göstərən Müdafiyə Şurasının, Problem Şurasının, tibbi-biologiya və həmçinin əczaçılıq fakültələrinin Elmi Şuralarının, 2 elmi jurnalın redaksiya heyətinin üzvüdür.

2000-ci ildə Beynəlxalq Ekoenergetika Akademiyasının həqiqi üzvü seçilmişdir.

2 dəfə Respublika Səhiyyə Nazirliyinin və 1 dəfə rektorluğun Fəxri Fərmanları ilə təltif olunmuşdur.

Sadə və təvazökar insan, yaxşı dost və məsləhətçi, nümunəvi ailə başçısı, istedadlı alim olan Ramiz Axundovu 75 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edir, ona uzun ömür, möhkəm cansağlığı, uğurlar diləyirik.

*ETM-in əməkdaşları*

# Dəyər bu həyat üçün!

**İnsan ömrünün səhifələrini vərəqləyərkən, bir an onun həyat yolu nəzərdən keçir. Bu həyat illərində onun necə yaşadığı, yazıb-yaratdığı, xeyirxah əməlləri, şəfalı əlləri yaddaşlarda həkk olunur.**

Belə insanlar digərlərinə sevinc bəxş edib, həyatda silinməz bir iz qoyurlar. Azərbaycan Tibb Universitetinin I mamalıq və ginekologiya kafedrasının dosenti Səfərəliyeva Afaq Rüstəm qızı da məhz belə insanlardandır. Bu günlərdə fədakar alimin 70 yaşı tamam oldu.

Afaq xanım hər zaman öz nüfuzunu, böyüklüyünü qoruyub saxlayan, səliqəli, nizam-intizamlı, müalicə işində əvəzolunmaz həkim, öz elmi fəaliyyətində öhdəlikləri vaxtında və yüksək səviyyədə yerinə yetirən şəxs kimi həmişə kafedranın əməkdaşlarına örnəkdir.

Afaq Rüstəm qızı Səfərəliyeva 1971-ci ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunu bitirdikdən sonra "Ana və uşaq mühafizəsi" Elmi-tədqiqat İnstitutunda kiçik elmi işçi vəzifəsində fəaliyyətə başlamışdır. 1977-ci ildə Moskva şəhərində Ümumittifaq mamalıq və ginekologiya Elmi-tədqiqat İnstitutunda namizədlik dissertasiyasını uğurla müdafiə edərək tibb elmləri namizədi elmi dərəcəsinə nail olmuşdur. 1982-ci ildən Azərbaycan Tibb Universitetinin III mamalıq və ginekologiya kafedrasında əvvəllər assistent, 2006-cı ildən isə dosent vəzifəsində çalışır. 2011-ci ildən bu günə qədər Universitetimizin I mamalıq və ginekologiya kafedrasının dosenti vəzifəsində fəaliyyət göstərir. Tədris etdiyi fənn üzrə maraqlı, yadda qalan mühazirə və praktiki məşğələlərdə ən müasir dərs vasitələrdən istifadə edir. Mühazirələrində güclü məntiq və fikir aydınlığı diqqəti cəlb edir. Hiss olunur ki, geniş mütaliə sahibidir. Onun çıxışları auditoriya üçün intellektual təfəkkürün inkişafıdır. Kafedranın yerləşdiyi ATU-nin Tədris Cərrahiyyə Klinikasının mamaginekologiya şöbəsində çalışır və poliklinikada konsultativ saatlar apararaq, səhiyyə təşkilatına prakrik kömək göstərir. Diaqnozların dəqiq qoyulması, yüksək parametrlərlə müalicənin aparılmasi, Respublikamızda minlərlə sonsuz ailələrə övlad payının sevinclə bəxş edilməsi, ən ağır, ümidsiz, fəsadlaşmış xəstələrin tam sağalması ilə ömrünü yaşayır. Afaq xanımın həyata baxışı, hər bir davranışı onun düşüncə tərzinə, dünyagörüşünə bağlıdır. 80-ə qədər elmi məqalənin, 11 metodik tövsiyənin və tədris vəsaitinin müəllifidir. "Bakı şəhərində tələbə qızların reproduktiv sisteminin xüsusiyyətləri" bölməsi üzərində çalışır. Kafedrada gənc kadrların hazırlanmasında fəal iştirak edən alimdir.



"Yaşayırıq bu dünyada
yazılmış bir ömür qədər,
Elə yaşa desinlər ki, onun
varlığına dəyər!"

Afaq xanım, Sizin 70 yaşınız mübarək olsun!!! Haqqında deyilənlər onu söyləməyə əsas verir ki, Afaq xanım mərhəmətli, qayğıkeş, səmimi bir insan kimi xarakterizə olunan, eyni zamanda gözəl pedaqoq, fədakar alim, əvəzolunmaz həkim və gələcək nəsillərə hər zaman örnək ola biləcək unikal bir şəxsiyyətdir.

Afaq Səfərəliyevanın həyatı – müəllimliyin, həkimliyin, ziyalılığın, alimliyin birgə vəhdətinin ifadəsidir!

**Şəfəq ƏSƏDOVA,**
*I mamalıq və ginekologiya kafedrasının Həmkarlar Təşkilatının sədri, dosent*

# Tədris Terapevtik Klinikada müasir standartlara cavab verən LOR kabineti fəaliyyətə başladı

**ATU-nun Tədris Terapevtik Klinikasında müasir standartlara cavab verən LOR (Qulaq-burun-boğaz) kabineti fəaliyyətə başlayıb. Kabinetin fəaliyyənin daha səmərəli edilməsi üçün artıq audiometriya və timpanometriya olmaqla daha iki müayinə metodları yerinə yetiriləcək. Bunun üçün kabinet "Otometrics" audiometri və timpanometri ilə təchiz olunub.**



Audiometriya metodu vasitəsilə eşitmə qabiliyyətinin yoxlanılması həyata keçirilir. Bunun üçün tam səsdən təcrid edilmiş mühitin olması vacibdir. Belə ki, klinikada yerləşdirilən bu cihazın üstünlüyü ondan ibarətdir ki, aparat kamera ilə təchiz olunub, bu da müayinənin daha dəqiq aparılmasına şərait yaradır. Bu metod vasitəsilə 5 yaşdan yuxarı uşaqlar və böyüklərdə eşitmənin yoxlanılması həyata keçirilir.

Timpanometriya orta qulağın funksiyasının obyektiv müayinə metodudur. Orta qulağın sümük sistemi, yevstax borusu, təbil pərdəsi və bu sistemlərin bir-biri ilə əlaqəsini göstərən çox sadə müayinə metoddur və yaşından asılı olmayaraq bütün xəstələrə tətbiq edilir.

Klinikamızda sizə işinin peşəkarı həkim-otorinolaringoloq, audioloq Aytən Quliyeva xidmət göstərəcək!

# Xəstəxanadaxili infeksiyalarla mübarizədə Avropa standartları

**ATU-nun Tədris Cərrahiyyə Klinikasında alman şirkətinin bu mövzuda təqdimatı olub.**

**Müasir klinikalar və tibb ocaqlarında xəstələrin şəfa tapması üçün hər cür şərait var. Lakin bura müalicə mərkəzi olmaqla yanaşı, həm də müxtəlif xəstələr tərəfindən gətirilən infeksiyalar düşə bilər. Bu baxımdan, xəstəxanaların dezinfeksiyası üçün ciddi və etibarlı metodlardan istifadə olunması böyük önəm daşıyır.**



Tədris Cərrahiyyə Klinikasında keçirilən seminar məhz bu mövzuya həsr olunmuşdu. "ST Company" MMC tərəfindən təşkil olunan tədbirdə klinika işçiləri üçün xəstəxanadaxili infeksiyalarla mübarizə üsullarından bəhs edilib.

Dezinfeksiya məhsullarının dünya səviyyəsində tanınmış istehsalçı olan Almaniyanın "Dr.Schumacher" GmbH şirkətinin Azərbaycanda rəsmi distribütoru "Tural Medikal" Azərbaycanda xəstəxanadaxili infeksiyalarla mübarizə tədbirlərinin təkmilləşdirilməsi məqsədilə respublikanın müxtəlif aparıcı xəstəxanalarında bu mövzuda seminarlar təşkil edir.

Tədris Cərrahiyyə Klinikasında da bu qəbildən "Tibb müəssisələrində xəstəxanadaxili infeksiyaların profilaktikası: dezinfeksiya və sterilizasiya" mövzusunda tədbir keçirildi. Tədbirdə tibbi təyinatlı alətlərin, o cümlədən endoskopların istifadədən sonra zərərsizləşdirilməsinin Avropa standartlarına uyğun metodikası, xəstəxanadaxili infeksiyaların profilaktikasında dezinfeksiya və sterilizasiyanın istiqamətləri və rolu, dezinfektant seçimi zamanı əsas kriteriyalar, "Dr.Schumacher" GmbH şirkətinin məhsulları timsalında dezinfektantların işçi məhlullarının düzgün hazırlanması və istifadə qaydaları haqqında məlumat verildi.

Seminarda "Dr.Schumacher" GmbH şirkətinin Türkiyə təmsilcisi Aslı Özbiber çıxış edərək iştirakçıları maraqlandıran sualları cavablandırdı.

*ATU-nun mətbuat xidməti*

# ATU-da uşaqlar üçün 2 günlük pulsuz aksiya sona çatdı

1 iyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında başlayan 2 günlük pulsuz aksiya başa çatdı. Aksiyada 1-16 yaş arası 100 nəfərə yaxın uşaq qəbul edilib. Tədbir barədə fikirlərini bölüşən professorlarımız bunun onlar üçün çox şərəfli bir iş olduğunu vurğulayıblar.

Professorlar – kardioloq İbrahim İsayev və Amaliya Əyyubova da arasında sadəcə profilaktik müayinə üçün gələnlər, eyni zamanda ciddi problemi olan uşaqlar da var idi. Əkiz uşaqları, həmçinin rayondan gələn uşaqları da qəbul etdik. Valideynlərə övladlarını mütəmadi olaraq həkim müayinəsindən keçirməyi tövsiyə etdik".

lem aşkar etdikdə, onu vaxtında həkim müayinəsinə aparmalı olduqlarını qeyd etdilər. Çünki vaxtında həkimlər tərəfindən edilmiş müdaxilə sonrakı problemlərin qarşısını ala və müayinələrdə də müsbət nəticə əldə oluna bilər.

Qeyd edək ki, BMT Baş Assambleyasının qərarı ilə 1950-ci ildən başlayaraq hər il iyunun 1-i beynəlxalq







Revmatoloq, professor Surxay Musayev bildirib ki, beynəlxalq səviyyədə keçirilən bu bayramda uşaqları müayinə etmək böyük sevinc yaşadıb: "Bu gün qəbul edilən uşaqlar öz növbələrində qəbul edilən uşaqlar arasında istər yoxlanış, istərsə də ciddi patologiya ilə üzləşən valideynlərin olduğunu bildirdilər. Valideynlərin uşaqda hansısa prob-

səviyyədə Uşaqların Müdafiəsi Günü kimi qeyd olunur. Dünyanın əksər ölkələrində olduğu kimi, bu gün Azərbaycanda da geniş şəkildə qeyd edilir.

# Cərrahlarımız beynəlxalq konqresdə uğurlarımızdan danışıblar

**Bu günlərdə Türkiyə Cümhuriyyətinin İstanbul şəhərində Bariatrik və Metobolik Cərrahi Video Platformu konqresi keçirilib. Bu konqresdə Azərbaycanı Tibb Universitetinin əməkdaşları təmsil ediblər.**

Konqresdə Azərbaycan Bariatrik və Metabolik Cərrahlar Dərnəyinin (ABMCA) sədri, ATU-nun I cərrahi xəstəliklər kafedrasının əməkdaşı t.ü.f.d. Taryel Ömərov, II cərrahi xəstəliklər kafedrasının əməkdaşı t.ü.f.d. Elçin Abdinov və III cərrahi xəstəliklər kafedrasının əməkdaşı, həmçinin ABMCA-nın üzvü Aslan Abdullayev iştirak ediblər.

Türkiyənin və dünyanın müxtəlif ölkələrindən olan mütəxəssislər də konqresə qatılıblar. Son illər bariatrik cərrahiyyədə, xüsusilə mədəkiçildilmə əməliyyatları zamanı əldə edilən nailiyyətlər haqqında danışılıb, problemlər müzakirə olunub və təcrübə mübadiləsi aparılıb. Nümayəndə heyətimizin üzvləri Azərbaycanda bu sahədə mövcud olan durum, aparılan uğurlu əməliyyat haqqında konqres iştirakçılarına ətraflı məlumat veriblər.

Artıq 4 ildir ki, Azərbaycan səhiyyəsində bariatrik cərrahiyyə üzrə ciddi nailiyyətlər əldə olunub. İllər öncə bu sahə ilə məşğul olan həkim-cərrahların sayı çox az olsa da, indi durum dəyişib. Artıq Azərbaycanda, o cümlədən ATU-nun klinikalarında bariatrik cərrahiyyə üzrə dünya səviyyəsinə uyğun şəkildə əməliyyatlar icra olunur.




# Universitetin Tələbə Həmkarlar İttifaqı Komitəsinə yeni sədr seçildi

- **İyunun 9-da Azərbaycan Tibb Universitetində Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədr seçkisi keçirildi. ATU-nun Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımov son illər ərzində tələbə həmkarlar ittifaqı komitəsi tərəfindən görülən işlər haqqında danışdı və yeni seçiləcək sədrə uğurlar arzuladı.**





ATU-nun THİK-nin sədri, dosent Elşad Novruzov sədrliyi dövrü üçün hesabat xarakterli çıxış etdi. Bildirdi ki, quruma rəhbərlik etdiyi son 5 ildə Tələbə Həmkarlar Təşkilatı 19 nəfərdən ibarət büro üzvü ilə fəaliyyət göstərib. Təşkilatın ən mühüm işlərindən biri tədris korpuslarında, o cümlədən yataqxanalarda nizam-intizamın gücləndirilməsi istiqamətində atılan addımlar olub. Son 5 ildə yataqxanalarda mərhələli şəkildə əsaslı təmir işləri aparılıb.

E.Novruzov komitənin əsas vəzifələrindən birinin tələbələrin ictimai fəallığını artırmaqdan ibarət olduğunu deyib: "2013-cü ildə biz AMU FlashMob klubunu yaratdıq. Bu klub bir çox uğurlara imza atdı. Məsələn, ilk olaraq "Party rock anthem" adlı flaşmob keçirildi. Daha sonra "Get Lucky" video çarxı hazırlandı və sosial şəbəkələrdə paylaşılan andan gözləniləndən də çox rəğbət qazandı. Növbəti layihə Xocalı faciəsini əks etdirən flaşmob oldu. Sonrakı layihələr arasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş layihəni misal çəkə bilərik. Burada "Azərbaycan" mahnısı tələbələr tərəfindən işarət dilində ifa olunmuşdu. Eyni zamanda, "Sağlam həyat tərzi" adlı videoçarx da sosial şəbəkələrdə maraqla qarşılanmışdı".

Qeyd edək ki, hazırda THİK nəzdində "FLASHMOB" komandası, "Medical conversation" danışıq klubu, "NƏ? HARADA? NƏ ZAMAN?" oyunu üzrə intellektual klub, "Vətəndaş Cəmiyyəti – DEBAT" ictimai klubu, "Esculap" şən və hazırcavablar komandası fəaliyyət göstərir. Həmçinin, ATU-nun və Azərbaycan Hava və Ekstremal İdman Növləri Federasiyasının dəstəyilə yaradılan "Medicus" klubu fəaliyyətdədir. ATU-da tələbələrin asudə vaxtlarının səmərəli təşkili üçün hər cür şərait yaradılıb. Universitetin nəzdində idman-sağlamlıq kompleksi, örtülü üzgüçülük hovuzu, "Nabran" sağlamlıq-istirahət düşərgəsi, İnternet mərkəzi və s. fəaliyyət göstərir. Universitetin nəzdində "Çinar" qızlar rəqs ansamblı, "Şən və hazırcavablar" qrupu və s. mədəni-kütləvi birliklər fəaliyyət göstərir.

Hesabat çıxışından sonra komitə sədrliyinə seçki keçirildi. Universitetin farmakoqnoziya və botanika kafedrasının assistenti Elvin Kərimli ATU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri seçildi. İclasda komitənin 15 nəfərdən ibarət idarə heyəti, 5 nəfərdən ibarət nəzarət-təftiş komissiyasının tərkibi də formalaşdırıldı.

# Dünya Birincili İmmun Çatışmazlıq həftəsi qeyd edilib

ATU-nun imunologiya kursunun, II uşaq xəstəlikləri kafedrasının əməkdaşları və onların himayəsi altında olan anadangəlmə immun çatışmazlığı olan xəstələr 4-cü ildir ki, Dünya Birincili İmmun Çatışmazlıq həftəsini qeyd etdilər.



Tədbirdə professor Gülnarə Nəsrullayeva, professor Amaliya Əyyubova, professor Nailə Sultanova və digərləri xəstələrin valideynləri ilə söhbət edərək onların suallarını cavablandırdılar, bu növ xəstələrin həyat tərzi və müalicəsi haqqında yeni məlumatlar verdilər: "İlbəil Azərbaycanda anadangəlmə immun çatışmazlığı olan xəstələrin sayı artır. Bu da onunla bağlıdır ki, belə xəstələrin müasir diaqnostikası onların erkən aşkarlanmasına zəmin yaradır. Xəstələrin qeydiyyatı və monitorinqi təşkil olunub və hal-hazırda 89 uşaq və yaşlı xəstə nəzarət altındadır. Xoşagələn haldır ki, bu ağır və həyat üçün təhlükəli patologiyadan son 4 ildə heç bir xəstə dünyasını dəyişməyib, əksinə vaxtlı və istiqamətli müalicə onların inkişafına və normal həyat sürmələrinə şərait yaradıb".

Görüşdən sonra uşaqlar "Tom və Jerry" uşaq əyləncə mərkəzində onlar üçün təşkil edilmiş şənlikdə iştirak etdilər. Burada uşaqlar oyun aparatlarında oynayıb, nağıl qəhrəmanları ilə xoş vaxt keçirdilər.

# Tələbəmiz Avstriyada keçirilən konqresdə elmi işini təqdim edib

**Bu günlərdə Avstriyanın Grats şəhərində Grats Tibb Universiteti tərəfindən "V Beynəlxalq Tələbə Konqresi" keçirilib. Konqresdə 36 ölkə universitetindən 200-ə yaxın tələbə iştirak edərək, elmi işlərini təqdim ediblər. Azərbaycanı bu konqresdə Azərbaycan Tibb Universitetinin V kurs tələbəsi Sərxan Həsənli təmsil edib.**



S.Həsənlinin sözlərinə görə, təqdim etdiyi elmi iş "II tip şəkərli diabet xəstələrində ultra uzun bazal insulinlərin kliniki tətbiqi pronsipləri" mövzusunda olub: "Elmi işimi professional dizaynla hazırladığıma və xarici dildə yüksək səviyyədə təqdim etdiyimə görə münsiflər heyəti tərəfindən böyük maraqla qarşılandım. Mövzuyla bağlı verilən bütün sualları ətraflı cavablandırdım".

Qeyd edək ki, Sərxan Həsənli Dağıstanda keçirilən Ümumrusiya Gənc Alimlərinin Bilik Forumunda da iştirak edib. O, forumun "Kliniki təbabət" hissəsinə qatılıb və şəkərli diabetə aid təqdim etdiyi elmi işi birinci yerə layiq görülüb. ATU-nun tələbəsi diplom və sertifikartla təltif edilib.

# Endokrinologiya ilə bağlı cərrahi problemlər müzakirə olundu

İyunun 9-da Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında ATU və Medipol Universitetinin birgə təşkil etdiyi "Endokrinologiyada cərrahiyyə ilə ortaq görüşlər" mövzusuna həsr olunmuş simpozium keçirildi.



Simpoziumda açılış nitqi ilə çıxış edən Tədris Cərrahiyyə Klinikasının direktoru, professor Surxay Hadıyev bu cür tədbirlərin qarşılıqlı əməkdaşlığın möhkəmlənməsi və təcrübə mübadiləsi baxımından mühüm əhəmiyyət kəsb etdiyini bilirdi: "Həmişə olduğu kimi qardaş dövlətin nümayəndələri öz zəngin bilik və bacarıqlarını bizim gənc universitet əməkdaşlarımızla bölüşmək üçün təşrif buyurublar. Medipol Xəstəxanalar Universiteti ilə Azərbaycan Tibb Universiteti və eyni zamanda Tədris Cərrahiyyə Klinikası ilə əməkdaşlıq memorandumu imzalayıblar. Məhz bu memorandum çərçivəsində əməkdaşlığın aktiv şəkildə davam etdirilməsi təqdirəlayiq bir haldır".

Konfransın çox aktual və maraqlı mövzuya həsr olunduğunu deyən S.Hadıyev qeyd edib ki, endokrinologiya üzrə Medipol Universitetindən və bizim klinikadan bu sahədə tanınan mütəxəssislərin çıxışı olacaq.

Medipol Xəstəxanasının tanıtımına dair videoçarx izlənildikdən sonra simpozium panel sessiyalarla işini davam etdirdi. Tireoid paneli doslent Abbas Abbasov və professor Yaşar Özdenkayanın sədrliyi ilə keçirildi. Paneldə Tədris Cərrahiyyə Klinikasının cərrah endokrinoloqu, t.ü.f.d. Azər Hümmətov "Qalxanabənzər vəzi əməliyyatlarında sinir monitorinqinin əhəmiyyəti", Baku Medical Plaza xəstəxanasının endokrinologiya şöbəsinin müdiri Hidayət Məmmədzadə "Qalxanabənzər vəzi xəstəliklərinə ümumi endokrinoloji baxış", professor Yaşar Özdenkaya "Qalxanabənzər vəzi xəstəliklərində robotik cərrahiyyə" mövzularında mühazirələrlə çıxış etdilər.

Simpoziumun ikinci hissəsi cinsiyyət vəziləri və böyrəküstü vəzdəki problemlərə həsr edilmişdi. Bu paneldə doktor Murat Api "Qadın sonsuzluğunun ümumi dəyərləndirilməsi və müasir metodlarla müalicəsi" (qadınlarda tüklənmə, menstrual tsikl pozğunluqları, polikistik yumurtalıq sindromu və s.), professor Yaşar Özdenkaya "Böyrəküstü vəzi törəmələrinin cərrahi müalicəsi" mövzusunda çıxış etdilər.

Simpozium səslənən məruzələr ətrafında müzakirələrlə davam etdi.

# Ramazan ayı münasibətilə pulsuz həkim müayinəsi keçirilib

**Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında 1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü və Ramazan ayı münasibətilə psixonevroloji uşaqlar üçün pulsuz həkim müayinəsi təşkil olunub.**



Klinikanın baş həkimi, professor Rauf Ağayev klinikada bu tip aksiyaların artıq ənənə halını aldığını deyib. Belə ki, adətən hər bir bayram ərəfəsində müxtəlif növ xeyriyyə aksiyaları keçirilir: "Lakin hər bir aksiyada əsas diqqəti uşaqlara yönəldirik. Bu dəfə Uşaqların Beynəlxalq Müdafiəsi Günü və Ramazan ayının başlaması münasibətilə 2 fərqli aksiya təşkil olundu.

İlk aksiyada klinikaya müraciət edən bütün uşaqlar üçün ümumi neonatoloq və pediatr müayinəsi, həmçinin bəzi önəmli analizlər pulsuz keçirilib. İkinci aksiya isə Şəhər Nevroloji Dispanserində müalicə alan uşaqlar üçün təşkil olunub. R.Ağayevin sözlərinə görə, dispanserdə qeydiyyatda olan uşaqlar arasında nevroloji müalicə alan, serebral ifliclə yatan, somatik xəstəliklərdən əziyyət çəkənləri var: "Bu uşaqlar əsasən dispanserin həkim-pediatrlarının müayinəsindən keçirlər. Bizim klinikada həmin uşaqlar dar ixtisaslar üzrə həkim baxışlarından keçdilər. Məsələn, onlar pulsuz olaraq oftalmoloq, travmatoloq, otolorinqoloq baxışından keçdilər, exo və kardioqramma müayinəsi olundu. Ümumilikdə 2 gün ərzində psixonevroloji problemləri olan 40-dək uşaq müayinədən keçib".

Rauf Ağayev bildirib ki, Tədris Cərrahiyyə Klinikası təsərrüfat əsaslı müəssisə olmasına baxmayaraq, Azərbaycan Tibb Universitetinin nəzdində olduğu üçün bu cür aksiyalar təşkil olunur: "Xeyriyyə məsələlərinə qoşulmağa və imkanımız çatan qədər hər kəsə kömək etməyə hazırıq. Onu da qeyd edim ki, klinikanın əməkdaşları çox böyük həvəslə aksiyaya qatıldılar. Hətta həkimlərimiz öz təşəbbüsləri ilə aksiya iştirakçısı olan uşaqlara hədiyyələr də almışdılar". Rauf Ağayev gələcəkdə də bu cür kampaniyaların təşkil olunacağını bildirib.

ATU-nun mətbuat xidməti

## Yeni nəşrlər

# Dərsliyə dair bəzi mülahizələr

**Ailə təbabəti kafedrasının müdiri, professor M.Salihov, Respublika QİÇS-lə Mübarizə Mərkəzinin həkimi D.Mahmudova, kafedranın dosenti L.Əlizadə və kafedranın assistenti K.Salihovanın birgə tərtib etdikləri "İİV/QİÇS-in (İnsanın İmmunçatışmazlıq Virusu/ Qazanılmış İmmun Çatışmazlıq Sindromu) erkən diaqnostikasında ailə həkiminin rolu" adlı dərs vəsaiti işıq üzü görmüşdür. (Bakı 2017. 190 səh.).**


M.S.Salihov, D.A.Mahmudova, L.İ.Əlizadə, K.M.Salihova

İİV/QİÇS-in (İnsanın İmmunçatışmazlıq Virusu/Qazanılmış İmmunçatışmazlıq Sindromu) erkən diaqnostikasında ailə həkiminin rolu



BAKI-2017

Dövlət siyasətinin əsas məqsədlərindən biri əhalinin sağlamlıq vəziyyətinin yaxşılaşdırılmasıdır. Xəstəliklərin profilaktikası yalnız səhiyyənin deyil, həm də, cəmiyyətin prioritet məsələlərindəndir. Müasir dövrdə Azərbaycan səhiyyəsinin əsas inkişaf istiqamətlərindən biri təbabətin sosial əhəmiyyətli sahələrində demoqrafik təhlükəsizliyin təmin edilməsi məqsədilə qəbul edilmiş milli fəaliyyət proqramlarıdır. Cəmiyyət üçün təhlükəli olan və insanın sosial müdafiəsini tələb edən sosial əhəmiyyətli xəstəliklərin yaranma səbəblərinin araşdırılması, vaxtında məqsədyönlü profilaktik tədbirlərin aparılması üçün multiintizamlı əməkdaşlıq təmin olunmalıdır və bu mühüm əhəmiyyət kəsb edir. Ailə həkimi sağlam həyat tərzinin təbliği, xəstəliklərin yaranmasına səbəb olan risk faktorlarının, xəstəliklərin gizli və erkən formalarının aşkar edilməsi, vaxtında müvafiq mütəxəssis yanına göndərilməsi, qaydaya uyğun pasiyentin vaxtında hospitalizə edilməsinin təmin edilməsi, zəruri reabilitasiya tədbirlərinin həyata keçirilməsində fəal iştirak edir. Poliklinik-ambulator tibbi xidmətin, əhalinin dispanserizasiyasının həyata keçirilməsində ailə həkiminin rolu əvəzedilməzdir.

İİV\QİÇS problemi dünyada qlobal problemlərdən biri olub, pandemiya davam etməkdədir. Bu infeksiya ilə yanaşı parenteral və cinsi yolla yoluxma yolları olan digər xəstəliklərin (Məs:virus hepatitləri B,C; sifilis, süzənək və s.) də erkən diaqnostikasında və profilaktikasında ailə həkimi tibbi xidmət zəncirində ilkin qüvvədir. Ailə həkiminin xidmət etdiyi ərazidə ailələrdə ailənin hər bir üzvünün sağlamlıq göstəriciləri, həyat tərzi, onlarda mövcud zərərli vərdişlərin, riskli davranış ehtimalı barədə məlumatlı olması bu işin məqsədyönlü və operativ həllini təmin edir.

"İİV/QİÇS-in erkən diaqnostikasında ailə həkiminin rolu" mövzusunda yazılmış dərs vəsaiti bütün dünyada aktual problem sayılan, sosial əhəmiyyətli infeksion xəstəliklərdən biri olan İİV/QİÇS problemi ilə bağlı lazımi məlumatları özündə əks etdirir. Bu dərs vəsaiti İİV/QİÇS infeksiyasının etiologiyası,patogenezi, epidemioloji aspektləri, bu infeksiyaya yoluxma riski faktorları, yoluxma yolları,diaqnostikası,kliniki gedişi, müalicəsi, profilaktikası, eləcə də, Azərbaycan Respublikasının İİV/QİÇS-lə bağlı hüquqi - normativ sənədləri özündə cəmləşdirib. Ailə həkimi həkim etikası və tibbi deontologiyaya riayət etməklə fəaliyyətini əhalinin sağlamlığının qorunmasına, əhalinin tibb müəssisələrinə vaxtında göndərilməsini təmin etməklə xəstəliklərin, o cümlədən sosial əhəmiyyətli infeksion xəstəliklərin erkən diaqnostikasında, xəstəliklərin profilaktikasında mühüm rol oynayır.

İİV/QİÇS-in erkən diaqnostikası infeksiyanın yayılmasının qarşısının alınmasında çox əhəmiyyətlidir. Bu məqsədlə dərs vəsaitində məlumatların geniş formatda verilməsi tələbələr tərəfindən məlumatların daha yaxşı mənimsənilməsinə, tədris səviyyəsinin yüksəlməsinə təkan dır, İİV/QİÇS-in erkən diaqnostikasının təkmilləşdirilməsində lazımi dəstək olacaq. Kitabda İİV/QİÇS problemilə bağlı məsələlərin ayrı-ayrı başlıqlar, cədvəl və şəkillər şəklində ətraflı şərhi tələbələrin bilikləri daha yaxşı mənimsəməsinə səbəb olacaq. Bu dərs vəsaitinin tələbələrin yüksək ixtisaslı kadr kimi formalaşmasında, sosial əhəmiyyətli infeksion xəstəlik olan İİV/QİÇS-in erkən diaqnostikası və profilaktikasında iştirakında mühüm rol oynayacaq.

Dərs vəsaitindən tələbələr, eləcə də, müxtəlif ixtisaslar üzrə həkim mütəxəssislər faydalana bilərlər.

**R.ÇOBANOV,**
*İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının müdiri, professor*

## Etibarsız sayılır

II müalicə-profilaktika fakültəsinin IV kurs, 290[b] qrup tələbəsi Yusubova Nailə Vaqif qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin VI kurs, 142[a] qrup tələbəsi Əhədli Fidan Gülhüseyn qızının adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Qüdrətova Ülviyyə Cahandar qızına 2010-cu ildə Azərbaycan Tibb Universiteti tərəfindən terapiya ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Şükürov Samir Dünyamalı oğluna 2010-cu ildə Azərbaycan Tibb Universiteti tərəfindən endokrinologiya ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

Azərbaycan Tibb Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi II müalicə-profilaktika fakültə həmkarlar təşkilatının sədri, assistent

**Fikrət Vəliyevin**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

Ümumi və toksikolji kimya kafedrasının əməkdaşları kafedranın dosenti Eldar Əhmədova əzizi

**Fərahim Qarayevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Histologiya, sitologiya və embriologiya kafedrasının əməkdaşları baş müəllim Təranə Nəcəfovaya xalası

**Gülnaz xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Uşaq cərrahlığı kafedrasının əməkdaşları kafedranın müdiri, professor Çingiz Quliyevə qaynanası

**Maya xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Biofiziki və bioüzvi kimya kafedrasının əməkdaşları kafedranın dosenti Eyvaz İsayevə qardaşı

**Musa İsayevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Təbib" qəzetinin kollektivi, travmatologiya və ortopediya, tibbi fizika və informatika, Azərbaycan dili kafedralarının əməkdaşları travmatologiya və ortopediya kafedrasının assistenti

**Fikrət Vəliyevin**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98[c]
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 1800